# Qarabağsız "Qarabağ şikəstəsi"

**Qarabağın adı da, taleyi də tora düşüb,bu cənnət yurd tələyə düşüb, qoynunda bəslədiyi qarabağlılar oradan did'rgin düşüb,ora, o ecazkar yurda uzanan yolların,çığırların qarşısına yağı düşmən sipər şəkib.**

Taleyi də,bəxti də,adi otu,çiçəyi də,şır-şır axan çayları,bulaqları da,hər dərdə dərman olan havası,suyu da,qara torpağı da əsirlikdə qalıb,ona qırx yerdən düyün vurublar,qibləsi itib,ümidi ha göyərsə də şaxta vurmuş kimi tez solur,elə bil bu yurda qarğış edənlərin,onu əlimizdən alanların meydanında hər kəsin bildiyi həqiqəti öldürüb içimizdə dəfn etmişik.

Otuz ilə yaxındır ki,Yuxarı Qarabağ işğal altındadır, onu əsarətdən qurtarmaq üçün atılan bütün addımlar öz bəhrəsini vermir. Qədim yer-yurd adları dəyişdirilir,Yuxarı Qarabağın sərvəti yağılar tərəfindən talan qarət edilir,orada qanunsuz məskunlaşma aparılır,qədim tarixi olan Ağdam şəhəri yer üzündən silinib,lələ,cəvahirə,taca oxşatdığımız Şuşa erməniləşdirilir,erməni şəhəri kimi dünyaya təqdim edilir. Folklorumuz, musiqimiz, adət ənənəmiz, tütəyimiz, hətta xörəklərimiz erməni tərəfindən yağmalanır,bu müqəddəsliyə haram qatılır.Qarabağ haqqında ermənilərin təbliğatı dünyanın ən ucqar guşəsinə belə yayılıb, adi, sıravi ermənidən başlayaraq bu özünütəsdiqə çox güclü dəstək verilir,maldan,mülkdən,var dövlətdən belə keçirlər ki,bəd niyyətlərini həyata keçirsinlər və çox vaxt da buna nail olurlar.

Ay yolçu, ay qardaş, ay qadan alım, bir dərdimi beş eləmə,hər yetənə faş eləmə, çıx get yolun ilə,dəymə,eşmə,eşələmə,mən bir dərd içində boğuluram,yaralı qəlbimdən həsrət fışqırır,neçə illərdir qan ağlayan ürəyimdə kədər düyün bağlayıb.Yurdsuz qalmaq ruhu uçmuş cəseddir,ondan adam olmaz, olsa da adama bənzəməz. Bu ayrılığa, bu həsrətə dözmək olmur,vallah, billah adamın canı çıxır,ruhu perik düşür,axı, nə qədər gözləmək olar?!

Qarabağ haqqında tarixi bir şikəstə var,xanəndələr uzun illərdir



ki,həmin şikəstəni oxuyurlar,aləm cənnətə dönsə,yaddan çıxmaz Qarabağ zəngulısi həmin yurdun tarixindən,taleyindən xəbər verir.

Biz onsuzda itirdiklərimiz haqqında nağıl danışmağı,bayatı qoşmağı, mahnı bəstələməyi çox sevirik.

Tanınmış muğam ifaçısı,gözəl səsə,avaza malik olan Azərbaycan Opera və Balet Teatrının solisti Elnur Zeynalov "Qarabağ şikəstə"sini yeni yanaşma ilə dinləyicilərə təqdim edib.Zənnimizcə,çox uğurlu, mənalı,düşündürücü və dəyərli alınıb. İşğalı,faciəmizi,yurd həsrətini,qarbağlıların taleyini çox dəqiq və dürüst ifadə edib.

Şikəstə də iki bənddən ibarət olan şer belədir:

**Əzizinəm Qarabağ,**
**Qara torpaq,qara bağ.**
**Bülbüllər köçən gündən,**
**Viran qaldı Qarabağ.**

**Əzizinəm ağrı var,**
**Sinəmizdə ağrı var,**
**Sağ tərəfdə Savalan,**
**Sol tərəfdə Ağrı var**
**Haray,haray Göyçə göllü,**
**Göz yaşım haray.**

Əslində, Elnur bu şikəstə ilə itirilmiş bütün Azərbaycan torpaqları haqqında musiqinin dili ilə nalə çəkir, erməni işğalına şikəstənin yanıqlı avazıyla üsyan edir:

**Aləm cənnətə dönüb,**
**Viran qalıb Qarabağ.**

Elnurun "Qarabağ şikəstə"sinə yeni yanaşması təbii ki,bir mənalı qarşılanmayıb, sosial şəbəkələrdə geniş müzakirələr aparılır.Elnuru müdafiə edənlər çox olsa da,ona etiraz edınlər də az deyil.

Çox acınacaqlı hal odur ki,şikəstə də oxunan şer bəndlərinə etiraz edənlərin böyük əksəriyyəti qarabağlılardır,xüsusilə bəzi mədəniyyət işçilərinin mövqeyi təəcüb doğurur.Yurdunu,evini,müqəddəs yerlərini,qəbiristanlıqlarını itirmiş insanların mövqeyi adamda sözün həqiqi mənasında ikrah hissi doğurur. Elnur nə deyirki?!Deyirki,Qarabağ viran qalıb,Savalan,Ağrı dağı əlmizdən çıxıb,aləm cənnətə dönür,Qarabağ viranəyə çevrilib və çox sürətlə erməniləşdirilir.

**Elnur çox böyük ürək ağrısı ilə Qarabağsız Qarabağ şikəstəsini ifa edib,dərdimizi və itkilərimizi musiqiyə hopdurub.**

**Alqışa layiqdir!**

**Salman Alıoğlu**